İPƏK YOLU, No.4, 2023, səh.88-97
DOI: 10.30546/1810-911X.2023.4.88

# AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL XƏRCLƏRİNİN SƏMƏRƏLİLİYİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

**Aygün Təhməzli**

İqtisadiyyat institutu, Azərbaycan Elm və Təhsil Nazirliyi, Bakı, Azərbaycan
e-mail: aliyeva.aygun.93@mail.ru

**Xülasə**. Məqalədə Azərbaycanda dövlətin sosial xərclərinin səmərəliliyi və ona təsir edən amillər araşdırılmışdır. Sosial ədalətin təmin olunması, gəlirlərin qeyri-bərabər bölgüsünün aradan qaldırılması sosial xərclərin səmərəli istifadəsindən birbaşa asılılığı göstərilmiş, büdcədən səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat istiqamətində ayrılan xərclərin səmərəliliyinin təhlili aparılmışdır.

**Açar sözlər:** Sosial xərclər, səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat, səmərəlilik.

## EFFICIENCY OF STATE SOCIAL SPENDING IN AZERBAIJAN AND FACTORS AFFECTING IT

**Aygun Tahmazli**
*Institute of Economics, Ministry of Education and Scienc,e Baku, Azerbaijan*

**Abstract**. The article examines the effectiveness of government social spending in Azerbaijan and the factors influencing it. It is shown that ensuring social justice and eliminating uneven distribution of income is directly dependent on the effective use of social expenditures. The analysis of the effectiveness of expenditures allocated from the budget in the areas of health care, education, social protection and social security has been carried out.
**Keywords:** Social expenditures, health, education, social protection and social security, efficiency.

## ЭФФЕКТИВНОСТЬ ГОСУДАРСТВЕННЫХ СОЦИАЛЬНЫХ РАСХОДОВ В АЗЕРБАЙДЖАНЕ И ВЛИЯЮЩИЕ НА НИХ ФАКТОРЫ

**Айгюн Тахмазли**
*Институт Экономики, Министерство Науки и Образования, Баку, Азербайджан*

**Резюме.** В статье исследована эффективность государственных социальных расходов в Азербайджане и влияющие на нее факторы. Показано, что обеспечение социальной справедливости, устранение неравномерного распределения доходов находится в прямой зависимости от эффективного использования социальных расходов, проведен анализ эффективности расходов, выделяемых из бюджета по направлению здравоохранения, образования, социальной защиты и социального обеспечения.
**Ключевые слова:** Социальные расходы, здравоохранение, образование, социальная защита и социальное обеспечение, эффективность.

## 1. Giriş

İstənilən sahədə səmərəliliyin təhlili deyildikdə, hər hansısa bir nəticəni əldə etmək üçün sərf olunan resurslar, əldə olunan nəticə və bu nəticəyə birbaşa və dolayı yolla təsir göstərən amillərin qarşılıqlı əlaqəsinin araşdırılması nəzərdə tutulur.

Əgər istifadə edilən resursların bəlli bir nəticəyə çevrilməsini bir proses kimi qiymətləndirsək, məlumdur ki, belə proseslərin heç biri kənar amillərin təsirindən təcrid edilmiş şəkildə mümkün ola bilməz. Məhz buna görə də səmərəliliyə təsir edən amillərin müəyyənləşdirilməsi, onların hər birinin müsbət və ya mənfi xarakterli təsirə malik olduğunun

qiymətləndirilməsi, mənfi amillərin mümkün qədər uzaqlaşdırılması daha yaxşı nəticələrin əldə olunması, başqa sözlə, səmərəliliyin artırılması üçün mühüm əhəmiyyətə malikdir.

İlk dəfə 1957-ci ildə Farrel səmərəliliyin necə ölçüləcəyi sualını araşdırdı və onun iqtisadi siyasətçilər üçün aktuallığını vurğuladı: *"Müəyyən bir sahənin əlavə resurslardan istifadə etmədən, sadəcə olaraq səmərəliliyini artırmaqla məhsul istehsalını nə dərəcədə artıracağını gözləmək vacibdir"* [11]. O vaxtdan bəri səmərəliliyi ölçmə alətləri daim təkmilləşdirilmiş və səmərəliliyin araşdırılması xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Buna baxmayaraq, dövlət xərclərinin səmərəliliyinin ölçülməsi aktual problem olaraq qalır.




**Şəkil 1.** Səmərəliliyin ölçülməsinin konseptual çərçivəsi

İstifadə olunan hər bir pul və qeyri–pul resursları (yəni Giriş) müəyyən bir Çıxış yaradır. Məsələn, təhsil xərcləri (Giriş) təhsil göstəricilərinə (Çıxış) təsir göstərir.

Giriş-Çıxış nisbəti səmərəliliyin ən əsas ölçüsüdür. Müəyyən bir Giriş üçün Çıxış nə qədər çox olarsa və ya müəyyən bir Çıxış üçün Giriş nə qədər az olarsa, fəaliyyət bir o qədər səmərəli olar. Effektivlik Giriş və ya Çıxışı əldə ediləcək son məqsədlərlə, yəni nəticə ilə əlaqələndirir. Nəticə çox vaxt rifah və ya artım məqsədləri ilə əlaqələndirilir və buna görə də bir çox amillər ona təsir edə bilir.

Hər iki anlayış arasındakı fərq məlum olsa belə, çıxış və nəticə bəzi hallarda bir-birilə qarışdırılır və onlar bir-birini əvəz edə bilən anlayışlar kimi istifadə olunur. Məsələn, təhsil sistemində Çıxış dedikdə, müəyyən yaşda olan şagirdlərin nailiyyət dərəcələri, yekun nəticə dedikdə isə, əmək qabiliyyətli əhalinin təhsil keyfiyyətləri nəzərdə tutulur. Effektivlik qarşıya qoyulan məqsədlərə nail olmaq üçün istifadə olunan resurslardan əldə olunan uğuru göstərir.

## 2. Dövlət xərclərinin səmərəliliyinə dair müxtəlif yanaşmalar

İqtisadiyyatın səmərəli inkişafı üçün dövlət xərclərinin idarə edilməsi və bu resursların xərclənməsinə nəzarət edilməsi əsas məsələdir. Mövcud beynəlxalq iqtisadi maliyyə vəziyyəti dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün onlardan düzgün istifadə olunmasına ictimai marağı artırmışdır. Dövlət xərclərinin idarə edilməsi məsələsi vətəndaşlar və müxtəlif qeyri-hökumət təşkilatları üçün narahatlıq mənbəyi olmuşdur. Əsas suallar isə bunlardır: Hökumətlər xərcləri səmərəli bölüşdürürmü? Bəs dövlət orqanları dövlət resurslarını necə daha səmərəli idarə edə bilərlər? Vətəndaşlar hökumətlərindən daha çox şəffaflıq və hesabatlılıq

istəyirlər və bu da səmərəliliyi idarə etməklə tərəqqi əldə etməyə şərait yaradır. Büdcə xərclərinin səmərəli istifadəsi ölkədə sülh və təhlükəsizlik şəraitində yaşamaq və işləmək imkanlarını təmin etməklə insanların həyat keyfiyyətini yaxşılaşdırır. Həddindən artıq bürokratiya, korrupsiya, xərclərin istifadəsində şəffaflığın olmaması həyat səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir və iqtisadi inkişafı ləngidir [18].

*Dövlət sektorunda səmərəliliyin ölçülməsinin əsas məqsədi texniki səmərəsizliyi izləmək, resursların nəticəyə çevrilməsi yollarının təkmilləşdirilməsi imkanlarını müəyyənləşdirməkdən ibarətdir* [16]. Dövlət xidmətlərinin idarə edilməsində səmərəlilik və onun digər iqtisadi və maliyə dəyişənləri ilə əlaqəsi ilə bağlı müxtəlif tədqiqatlar mövcuddur. Dövlət maliyəsi sahəsində artan araşdırmalar dövlət xərclərinin makroiqtisadi sabitliyə və iqtisadi artıma təsirlərini tədqiq edir. Bu tədqiqatlardan biri dövlət xərclərinin iqtisadi artıma necə təsir etdiyini müəyyən edən Afonso və Alegreyə məxsusdur [6]. Balaguer-Coll və Prior kimi digər müəlliflər dövlət xərclərinin səmərəli idarə edilməsinə təsir edən amilləri və bu amillərin iqtisadi artıma necə təsir etdiyini təhlil etmişlər [9]. Bəzi tədqiqatlar resursların səmərəli bölüşdürülməsinin təhlilinə yönəlmişdir. Afonso, Schuknecht və Tanzi [8], Afonso və Aubyn [7], Herrera və Pang [13] əsərlərində təhsil və səhiyyə xərcləri də daxil olmaqla müəyyən xərclərin səmərəliliyini qeyri-parametrik metodlardan istifadə etməklə araşdırmışlar. Gimenez və Prior [12], Lonti və Woods [14] dövlət xərclərinin səmərəliliyinə təsir edən sosial-iqtisadi amilləri və dövlət xərclərinin idarə edilməsində bu əlaqənin nəticələrini müəyyənləşdirməyə çalışmışlar.

Yuxarıda qeyd olunan bütün tədqiqatların qarşılaşdığı əsas problemlərdən biri səmərəliliyin müəyyən edilməsi və ölçülməsidir. *Səmərəlilik optimal hesab edilən standart qiymətləndirmə ilə müqayisədə çıxış-giriş nisbətinə istinad edən nisbi anlayışdır* [17].

### 3. Sosial xərclərin səmərəliliyinin müəyyənləşdirilməsi

Statistik göstəricilərə nəzər salsaq, görərik ki, büdcədən səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat istiqamətində ayrılan xərclərin xüsusi çəkisi ildən-ilə artmışdır.

Xərclərin xüsusi çəkisinin artmasına baxmayaraq təhsil, səhiyyə sahəsində vəziyyəti heç də qənaəətbəxş hesab etmək olmaz. Səhiyyənin və təhsilin inkişafını müəyyənləşdirən bir sıra göstəricilər vardır. Vəziyyəti dəyərləndirmək üçün ilk növbədə səhiyyənin inkişafını xarakterizə edən doğulanda gözlənilən ömür uzunluğu və körpə ölümü göstəriciləri üzrə Azərbaycanın bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisəsi aşağıdakı qrafiklərdə öz əksini tapmışdır:




**Qrafik 1.** Azərbaycan Respublikasında dövlətin səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat xərclərinin büdcə xərclərində xüsusi çəkisi
**Mənbə:** https://www.stat.gov.az/source/finance/

Qrafik 2-də Covid-19 pandemiyasından əvvəl və pandemiya dövründə (2020-ci il üzrə) doğuşda gözlənilən ömür müddəti müqayisə olunmuşdur. Yaponiya, Norveç, Finlandiya istisna olmaqla müqayisə olunan digər ölkələr üzrə ömür uzunluğu pandemiya səbəbindən qısalmışdır. Qrafikdən də görünür ki, hər 2 ildə Yaponiya, Norveç, İsveç kimi inkişaf etmiş ölkələr bu göstəriciyə görə də ön sıralardadırlar. Azərbaycan isə 2019-cu ildə təkcə Türkmənistandan yüksək göstəriciyə malik olsa da, 2020-ci ildə bu ölkələr arasında ən aşağı yerdə qərarlaşmışdır. 2020-ci ildə Azərbaycanda büdcə xərcləri içərisində səhiyyə xərclərinin xüsusi çəkisinin təxminən 1,8 dəfə artmasına baxmayaraq, bu ölkələr arasında doğulanda gözlənilən ömür uzunluğu ən çox ölkəmizdə azalmışdır.

Körpə ölümü də səhiyyə sisteminin əsas göstəricilərindən biridir. Aşağıdakı qrafikdə 2010 və 2021-ci illərdə bir sıra İEÖ və İEOÖ-lərdə körpə ölümü müqayisəli şəkildə göstərilmişdir. Qrafik 3-dən də görünür ki, hər 2 il üzrə müqayisəsi aparılan ölkələr arasında Azərbaycan ən yüksək göstəriciyə malikdir. 2021-ci ildə körpə ölümü 2010-cu ilə nəzərən ölkəmizdə təxminən 2 dəfəyə qədər azalsa da, hələ də vəziyyət ürəkaçan deyil. Belə ki, bu göstərici Azərbaycanda İEÖ-lərdən dəfələrlə yüksək, hətta Gürcüstan, Ermənistan, Qazaxıstandan da təxminən 2 dəfə çoxdur.

Təhsilin keyfiyyətini daim nəzarət altında saxlamaq, mövcud vəziyyəti qiymətləndirmək, şagirdlərin müasir tələblərə nə qədər uyğunlaşdığını müəyyən etmək, effektivliyi beynəlxalq standartlara uyğun dəyərləndirmək məqsədi ilə dünyada bir sıra müxtəlif qiymətləndirmə proqramları mövcuddur. Bu proqramlardan biri də İƏİT-in təşkil etdiyi Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramıdır (The OECD Programme for İnternational Student Assessment-PISA). PISA tədqiqatlarında istifadə edilən "savadlılıq" anlayışı, şagirdlərin bilik və potensialını inkişaf etdirmək və cəmiyyətə daha effektiv bir şəkildə qatılmaq və töhfə vermək üçün yazılı mənbələri tapmaq, istifadə etmək, qəbul etmək və qiymətləndirmək kimi müəyyən edilir. Aşağıdakı qrafikdə 2018-ci ildə təşkil edilmiş PISA testinin nəticələri üzrə Azərbaycanın bir neçə ölkə ilə müqayisəsi öz əksini tapmışdır.




| | Almaniya | Norveç | İsveç | Fransa | Finlandiya | Estoniya | Litva | Latviya | Türkiyə | ABŞ | Yaponiya | Rusiya | Azərbaycan | Gürcüstan | Ermənistan | Qazaxıstan | Türkmənistan |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2019 | 81,3 | 83 | 83,1 | 82,8 | 82 | 78,6 | 76,3 | 75,4 | 77,9 | 77,8 | 84,4 | 73 | 73 | 73,4 | 75,5 | 73,1 | 69 |
| 2020 | 81 | 83,2 | 82,5 | 82,2 | 82,1 | 78,4 | 75 | 75,4 | 75,9 | 73,3 | 84,6 | 71,4 | 67 | 72,8 | 72,2 | 71,5 | 68,7 |

**Qrafik 2.** Doğuşda gözlənilən ömür uzunluğu

**Mənbə:** https://data.worldbank.org/indicator/SP.DYN.LE00.IN




| | Almaniya | Norveç | İsveç | Fransa | Finlandiya | Estoniya | Litva | Latviya | Türkiyə | ABŞ | Yaponiya | Rusiya | Azərbaycan | Gürcüstan | Ermənistan | Qazaxıstan |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Столбец1 | | | | | | | | | | | | | | | | |
| 2021 | 3 | 1,8 | 2 | 3,4 | 1,8 | 1,6 | 2,7 | 3,2 | 7,9 | 5,4 | 1,7 | 4,1 | 17 | 8,4 | 9,5 | 9 |
| 2010 | 3,5 | 2,7 | 2,5 | 3,1 | 2,5 | 3,6 | 4,9 | 6,5 | 15,5 | 6,2 | 2,3 | 8,4 | 33 | 12,6 | 16,8 | 18,1 |

**Qrafik 3.** Körpə ölümü (hər 1000 nəfər doğulana)
**Mənbə**: https://data.worldbank.org/indicator/SP.DYN.IMRT.IN




**Qrafik 4.** PİSA testinin nəticələri
**Mənbə:** https://factsmaps.com/pisa-2018-worldwide-ranking-average-score-of-mathematics-science-reading/

Müqayisədən də göründüyü kimi nəticələr heç də gözləntiləri doğrultmur. Qiymətləndirmənin ölkəmizdə təkcə Bakı şəhəri üzrə aparıldığını nəzərə alsaq, ümumrespublika üzrə göstəricilər indikindən daha aşağı olar. Bu isə təhsil sahəsində aparılan islahatların artırılmasını, ayrılan maliyə vəsaitlərinin daha səmərəli idarə olunmasının zəruriliyini bir daha təsdiqləyir.

Ölkələrin sosial inkişafını xarakterizə etmək üçün istifadə olunan bir sıra əsas göstəricilər vardır. BMT- nin hesabladığı İİİ bu göstəricilərdən biri sayılır. İİİ-nin iqtisadi inkişafdan fərqi ondan ibarətdir ki, o, ölkələrin inkişaf səviyyəsini təkcə gəlirlərə görə deyil, həm də təhsil və səhiyyə imkanlarını nəzər almaqla araşdırır [3]. İİİ üç əsas komponent əsasında formalaşır: gəlir, təhsil və səhiyyə. Gəlir sub-indeksi adambaşına düşən ÜDM, Səhiyyə sub-indeksi doğulanda gözlənilən ömürdür. Təhsil komponenti isə orta təhsil müddəti və gözlənilən təhsil müddəti dəyişənlərindən ibarətdir [3].

Aşağıdakı cədvəldə bir sıra ölkələrdə, eləcə də Azərbaycanda 2010 və 2020-ci illərdə sosial xərclərin ÜDM-ə nisbəti və bu xərclərlə sosial inkişaf arasındakı asılılığı müəyyən etmək üçün rifah halını ifadə edən İİİ öz əksini tapmışdır.

Cədvəl 1-dən də göründüyü kimi, müqayisə aparılan hər 2 il üzrə inkişaf etmiş ölkələrdə sosial sahələrə ayrılan xərclərlə yanaşı, İİİ də digər inkişaf etməkdə olan ölkələrə nisbətən, yüksəkdir. Belə ki, dövlətin sosial xərclərinin ÜDM-də xüsusi çəkisi çox olan Fransa, Finlandiya, İsveç kimi ölkələrdə İİİ də yüksək göstəriciyə malikdir. Əksinə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Ermənistan kimi ölkələrdə isə həm sosial xərclərin ÜDM-də xüsusi çəkisi, həm də İİİ aşağı göstəricilərə malikdir.

**Cədvəl 1.** Sosial xərclərin ÜDM-ə nisbəti və İİİ (2010 və 2020- ci illər)

| № | Ölkələr | Sosial xərclərin ÜDM-ə nisbəti | | İnsan İnkişafı İndeksi | |
|---|---|---|---|---|---|
| | | 2010 | 2020 | 2010 | 2020 |
| 1 | Azərbaycan | 6,4 | 10,8 | 0,727 | 0,730 |
| 2 | Almaniya | 34 | 33 | 0,926 | 0,944 |
| 3 | Norveç | 31,7 | 33,6 | 0,941 | 0,959 |
| 4 | İsveç | 34,5 | 36 | 0,910 | 0,942 |
| 5 | Finlandiya | 37,4 | 37,4 | 0,911 | 0,938 |
| 6 | Fransa | 37,9 | 37,7 | 0,877 | 0,898 |
| 7 | Estoniya | 24,5 | 24,5 | 0,861 | 0,892 |
| 8 | Latviya | 23 | 21,2 | 0,824 | 0,871 |
| 9 | Litva | 24,3 | 20,4 | 0,842 | 0,879 |
| 10 | Türkiyə | 20,4 | 16,5 | 0,749 | 0,833 |
| 11 | ABŞ | 34 | 33,5 | 0,911 | 0,920 |
| 12 | Rusiya | - | 20,3 | 0,796 | 0,830 |
| 13 | Gürcüstan | - | 13,8 | 0,759 | 0,802 |
| 14 | Ermənistan | - | 10,7 | 0,746 | 0,757 |
| 15 | Qazaxıstan | - | 11,3 | 0,767 | 0,814 |

**Mənbə:** https://www.stat.gov.az/source/finance/; https://worldpopulationreview.com/country-rankings/hdi-by-country

## 4. Sosial xərclərin səmərəliliyinə təsir edən amillər

*Sosial xərclərin səmərəli istifadəsi cəmiyyətdə sosial ədalətin təmin olunmasına, gəlirlərin bölgüsündəki bərabərsizliyin azaldılmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə və s. səbəb olur* [1].

M. Labontenin fikrincə, *"səmərəsiz dövlət xərclərinin azaldılması iqtisadiyyata müsbət təsir göstərir, lakin effektiv dövlət xərclərinin azaldılması isə əksinə. Çətin situasiyalarda dövlət müdaxiləsi iqtisadiyyatın effektivliyini artıra bilər"* [1].

Artıq qeyd etdiyim kimi səhiyyə, təhsil və sosial müdafiə və sosial təminat xərclərinin kəmiyyətcə artması heç də həmişə bu sahələrdə vəziyyətin yaxşılaşmasına biristiqamətli təsir göstərmir. Xərclərin nominal olaraq artması ilə yanaşı, həm də onların hansı məqsədlər üçün və nə dərəcədə səmərəli istifadə olunması da vacib şərtdir. Səmərəliliyə isə təsir edən bir sıra xarici amillər mövcuddur. Belə ki, müxtəlif amillər xərclərin səmərəliliyinə müsbət və mənfi olmaqla iki istiqamətdə təsir göstərə bilər.

Dövlət sektoru xərclərinin səmərəliliyinin determinantları aşağıdakılardır:

- **İqtisadi amillər:** *adambaşına düşən gəlir, inflyasiya, iqtisadiyyatın açıqlıq səviyyəsi, gəlir bərabərsizliyi, xarici borc və s.*
- **İnstitusional amillər:** *şəffaf maliyə hesabatlılığı, korrupsiyanın səviyyəsi, strategiyaların və islahatların təkmil olmaması, demokratiya, sosial infrastruktur və s.*
- **Demoqrafik və coğrafi amillər:** *yaş bölgüsü, əhali sıxlığı və s.*

*Adambaşına düşən gəlir* sosial xərclərin səmərəliliyinə həm müsbət, həm də mənfi təsir edə bilər. Belə ki, adambaşına düşən gəlir artdıqca əhalinin rifah halı yaxşılaşır, yoxsulluq azalır və nəticədə, dövlətin sosial yükü azalır və ya əksinə, adambaşına düşən milli gəlir azalarsa,

əhalinin vəziyyəti pisləşər, yoxsulluq və dövlətin sosial yükü artar. Ümumilikdə isə demək olar ki, **iqtisadi amillər** arasında ÜDM-in artmasına müsbət təsir edən amillər, həm də sosial xərclərin səmərəliliyinə müsbət təsir edir və əksinə.

*İqtisadiyyatın açıqlıq səviyyəsi* də bu amillərdən biridir. Bu isə o deməkdir ki, iqtisadiyyatın açıqlığı ÜDM-in artmasına və dolayı yolla ölkənin sosial-iqtisadi inkişafına səbəb olan amillərdən biridir. Gəlirlərin ədalətli bölgüsü məsələsi hər zaman dünya dövlətlərinin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biri olmuşdur. Bu prinsip rifah dövlətinin başlıca prinsiplərindən hesab olunur [1]. Gəlir bərabərsizliyinin yüksək olduğu ölkələrdə əhalinin həyat keyfiyyəti aşağı düşür, səhiyyə və təhsilin səviyyəsi azalır. Gəlirlərin böyük hissəsi cəmiyyətin kiçik bir hissəsinin əlində cəmləşərsə, bu vəziyyət cəmiyyətin əksəriyyətinin əsas ehtiyaclarının ödənilməməsinə və rifah səviyyəsinin aşağı düşməsinə səbəb olur [5]. Bu isə sosial xərclərin səmərəliliyinə neqativ təsir göstərir. Bazar iqtisadiyyatının əsas şərti qiymət sabitliyidir. İnflyasiyaya qarşı yüksək həssaslıq ondan ibarətdir ki, bazar iqtisadiyyatının yeganə etibarlı ideologiyası qiymətin sabitliyinə əsaslanır. İnflyasiya qiymətlərin ümumi səviyyəsinin artmasıdır. Qiymətlərin ümumi səviyyəsinin daim artmasının kifayət qədər çox neqativ təsirləri var və cəmiyyətin üzərində yük yaradır.

*Xarici borc* da ölkənin sosial-iqtisadi vəziyyətinə müxtəlif yollarla təsir göstərən əsas iqtisadi amillərdən biridir.

İqtisadi amillərdən fərqli olaraq **institusional amillər** sosial xərclərin səmərəliliyinə dolayı yolla deyil, birbaşa təsir göstərir. *Maliyə hesabatlarının şəffaflığı* imkan verir ki, xərclərin hansı məqsədlə istifadə edildiyi aydın şəkildə ifadə olunsun və bunun əsasında xərclərin səmərəliliyi haqqında fikir söyləmək mümkün olsun. Belə ki, Maliyə Nazirliyi tərəfindən hər il büdcə gəlirləri və xərcləri təhlil edilir və bu təhlillə bağlı ictimaiyyətə məlumat verilir. Lakin bəzi hallarda xərclərin tam təfərrüatlı göstərilməməsi səmərəliliklə bağlı müəyyən suallar yarada bilir. Şəffaflıq səbəb-nəticə əlaqələrini görməyə və dərindən təhlil etməyə əsas verir. Həmçinin xərclərin ehtiyaclara görə paylanıb-paylanmaması müəyyən oluna bilir. Bu isə aydındır ki, xərclər ehtiyaclara, tələbata görə paylanarsa, daha çox fayda vermiş olar.

İnstitusional amillərdən biri də *strategiyaların və islahatların təkmil olmamasıdır.* Belə ki, həm səhiyyə, həm təhsil, həm də əhalinin sosial müdafiəsi və təminatı ilə bağlı müxtəlif vaxtlarda fərqli strategiyalar və islahatlar işlənib hazırlanmışdır. Lakin bu islahatların bəziləri heç sona qədər tətbiq edilməmiş, bəzilərində gözlənilən sosial və iqtisadi fayda əldə edilməmiş, bəziləri isə sonda səmərəliliklə bağlı mümkün qiymətləndirilməsi və növbəti mərhələlər üçün vacib olan təhlili aparılmamışdır.

Səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat istiqamətində dövlət büdcəsindən ayrılan maliyə vəsaitlərinin effektivliyinə təsir edən ən mühüm amillərdən biri də *korrupsiya*dır. Belə ki, bu sahələrə ayrılan pul vəsaitləri bir sıra hallarda korrupsiyaya məruz qalır və təyinatı üzrə xərclənmir. Səmərəliliyin konseptual çərçivəsindən Şəkil.1-dən göründüyü kimi, proses nəticəsində hər hansısa bir çıxış elementinin əldə edilməsi hələ sərf olunan resursun (Giriş elementinin) səmərəli istifadə olunması demək deyil. Səmərəlilik üçün

nəzərdə tutulan nəticənin əldə olunması əhəmiyyət kəsb edir. Pul vəsaitləri korrupsiyaya uğradıqda və təyinatından kənar məqsədlər üçün istifadə edildikdə gözlənilən nəticənin kəmiyyəti və keyfiyyəti nəzərəçarpacaq dərəcədə aşağı düşür.

Dövlətin səhiyyə, təhsil, sosial müdafiə və sosial təminata ayırdığı xərclərinin səmərəliliyinin bir sıra **demoqrafik** amillərdən də bilavasitə asılıdır. *Yaş bölgüsü* bu amillərdən biridir. Bir çox ölkələrdə təbii artım sürətinin azalması və demoqrafik quruluşun yaşlı əhalinin artması hesabına dəyişməsi işləməyən əhali qruplarının işləyən hissədən asılılıq nisbətini artırmışdır. Bu isə getdikcə dövlətin sosial yükünü ağırlaşdırır, səhiyyə və sosial müdafiə və sosial təminat xərclərinin səmərəliliyini azaldır.

Qeyd etmək lazımdır ki, sənaye ölkələrində əhalinin yaşlanmasının təhsil xərcləri üzərində neqativ təsirinin olduğu empirik tədqiqatlarla araşdırılmışdır. Bu istiqamətdə aparılan bir çox təhlillərdən əldə edilən nəticələrə görə dövlətin təhsil xərcləri ilə əhalinin yaşlı qrupu arasında neqativ korrelyasiyanın olduğu müəyyən edilmişdir [10]. Bu əlaqəni daha dərindən izah etmək məqsədilə İsveçrədə müxtəlif yaşlı əhali qrupları arasında anket sorğusu aparılmış və sorğu nəticəsində yaşlı insanların təhsil xərclərinə az önəm verdikləri məlum olmuşdur. Digər tərəfdən, yaşlı insanlar büdcə xərclərinin təhsildən daha çox səhiyyə və sosial müdafiəyə ayırılmalı olduğu qənaətindədirlər.

*Əhali sıxlığı* da sosial xərclərin səmərəliliyinə təsir edən amillərdəndir. Belə ki, xidmətlərin təqdim olunması baxımından əhali sıxlığı xərclərin səmərəli və ədalətli bölüşdürülməsi baxımından böyük önəm daşıyır.

**Nəticə.** Bütün ölkələrin, xüsusilə inkişaf etməkdə olan ölkələrin hökumətləri öz vətəndaşlarının həyat səviyyəsini yaxşılaşdırmaq üçün məhdud resurslardan maksimum səmərəli və məhsuldar istifadə etməlidirlər. Lakin bəzi hallarda yuxarıda qeyd olunan bəzi mənfi amillər xərclərin səmərəliliyini azaldır. Bu halların aradan qaldırılması üçün ilk növbədə hesabatlılığın artırılması, xərclərə nəzarətin gücləndirilməsi, şəffaflığın təmin olunması üçün sadələşdirilmiş və müasir dövlət/büdcə idarəetməsi icra olunmalıdır. Sosial xidmətlərin keyfiyyətinin artırılması da əldə olunan göstəriciləri yaxşılaşdırmaqla dövlətin sosial xərclərinin səmərəliliyinə müsbət istiqamətdə təsir göstərir. Xərclərin səmərəliliyini artırmaq, insanların rifah halını yaxşılaşdırmaq, təhsil, səhiyyə sahəsində yüksək effektivlik əldə etmək üçün əsas vasitələrdən biri də idarəetməni və xərcləri resursyönümlülükdən nəticəyönümlülüyə keçirməkdir.

## Ədəbiyyat

1. Abdullayeva R.S. (2021), Azərbaycan Respublikasında sosial müdafiə sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi. İqtisad elmi üzrə doktorluq dissertasiyası. Bakı, 309.
2. Məlikli G.Q. (2013), Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu: Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı, 146.

3. Gülel F.E., Çağlar A., Uyar S.G.K., Karadeniz O., Yeşilyurt M.E. (2017), Türkiye'de illere göre insani gelişme endeksi. Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, No.27, 208-216.
4. Paya M. (2013), Makroiktisat, 4. Baskı, Türkmen Kitapevi, İstanbul.
5. Şener O. (2006), Kamu Ekonomisi, 13. Baskı, Beta Yayıncılık, İstanbul.
6. Afonso A., Alegre J.G. (2011), Economic Growth and Budgetary Components: A Panel Assessment for the EU. Empirical Economics, Vol.41, No.3, 703-723.
7. Afonso A., Aubyn M.S. (2005), Non-Parametric Approaches to Education and Health Efficiency in OECD Countries. Journal Applied Economics, Vol.8, No.2, 227-246.
8. Afonso A., Schnucnecht L., Tanzi V. (2003), Public Sector Efficiency: An International Comparison. European Central Bank Working Paper No.242, Frankfurt.
9. Balaguer-Coll M.T., Prior D. (2009), Short and Long-Term Evaluation of Efficiency and Quality. An Application to Spanish Municipalities. Applied Economics, Vol.41, No.23, 2991-3002.
10. Cattaneo M.A., Wolter S.C. (2009), Are the elderly a threat to educational expenditures? Eur. J. Polit. Econ., Vol.25, No.1, 225-236.
11. Farrell J. (1957), The Measurement of productive efficiency, Journal of the Royal Statistical Society, Vol.120, No.3.
12. Giménez V.M., Prior D. (2007), Long and short-term cost efficiency frontier evaluation: Evidence from Spanish local governments. Fiscal Studies, Vol.28, No.1, 121-139.
13. Herrera S., Pang G. (2005), Efficiency of public spending in developing countries: an efficiency frontier approach, Policy Research Working Paper Series,Vol.3645. World Bank Publications.
14. Lonti Z., Woods M. (2008), Towards government at a glance: Identification of core data and issues related to public sector efficiency OECD Working Paper on Public Governance, No.7, 1-154. OECD Publishing.
15. Mandl U., Dierx A., Ilzkovitz F. (2008), The effectiveness and efficiency of public spending, No.301. Directorate General Economic and Financial Affairs (DGECFIN), European Commission.
16. Kraan D.J., Malinska J., Manning N., Matthews E. (2006), How and Why Should Government Activity Be Measured in Government at a Glance? 34 th Session of the Public Governance Committee. OECD GOV Technical Paper 1. Paris: OECD.
17. López N.R. (2006), El objetivo de la mejora de la eficiencia p ú blic a. Reflexiones a partir de la evidencia empírica. The Goal of Improving Public Efficiency. Reflections from Empirical Evidence. Auditoría Pública, Vol.40, 61-74.
18. World Economic Forum (WEF). (2013), Global Competitiveness Report 2013-2014.
19. https://www.stat.gov.az/source/finance/
20. https://worldpopulationreview.com/country-rankings/hdi-by-country
21. https://data.worldbank.org/indicator/SP.DYN.LE00.IN
22. https://data.worldbank.org/indicator/SP.DYN.IMRT.IN